# Vətən, sənə Zəfər yaraşır!

8 Noyabr – Zəfər Günü münasibətilə bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində rəngarəng tədbirlər təşkil edilib.



Bərdə Regional Mədəniyyət İdarəsinin (RMİ) Tərtər rayon nümayəndəliyi Heydər Əliyev adına istirahət parkında "Vətən, sənə Zəfər yaraşır!" başlığı altında konsert proqramı təşkil edib. Konsertdən öncə tədbir iştirakçıları Zəfər Gününə həsr olunmuş kitab və Qarabağ xalçalarından ibarət sərgi ilə tanış oldular. Sonra vətənsevərlik ruhlu nəğmələrdən ibarət konsert proqramı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Tərtər rayon Heydər Əliyev Mərkəzində "Vətənpərvərlik: qazilik və şəhidlik" layihəsinin yekun tədbiri keçirilib. Tədbirdə son beş ay ərzində qazilərlə mərkəzdə keçirilən görüşlərdən hazırlanmış videoçarx nümayiş etdirilib.

***

Quba rayon Heydər Əliyev Mərkəzində Xaçmaz RMİ-nin təşkil etdiyi "Zəfər yazanlar" ədəbi yazı müsabiqəsi qaliblərinin mükafatlandırılma mərasimi və eyniadlı ədəbi toplunun təqdimatı keçirilib. Müsabiqədə I, II, III yerlərə layiq görülən, eləcə də həvəsləndirici yerlər qazanan əsərlər ədəbi topluda yer alıb. Qaliblərə regional idarənin fəxri fərman və mükafatları təqdim olunub.

Şabran RİH və rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə yürüş keçirilib. Şabrandakı Qala meydanınadək davam edən yürüş "Vətən" fləşmobu və bayrağımızın Qala zirvəsində dalğalandırılması ilə başa

RMİ və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə konsert proqramı keçirilib. Konsertdə Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərlik ruhlu, bayram əhvalı bəxş edən musiqilər səsləndiriblər.

Cəlilabad rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən musiqili tədbirdə məktəblilər Zəfər Gününə həsr olunmuş şeirlər söyləyib, incəsənət ustaları şən musiqilər ifa ediblər. Cəlilabad rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə bir qrup gənc mədəniyyət işçisi, şəhid ailələri, qazilər və mərkəzin əməkdaşları Bakıdakı Hərbi qənimətlər parkında oldular.

Yardımlı rayon Mədəniyyət Mərkəzi Vərgədüz kənd Sənətkarlıq klubu və orta məktəbin birgə təşkilatçılığı ilə "Zəfər bayramı" adlı tədbir keçirilib.

***

Sumqayıt RMİ-nin Zəngilan rayon nümayəndəliyində "Qələbən mübarək, Azərbaycan!" adlı tədbir keçirilib. Tədbirdə Əməkdar artistlər Almaz Orucova, Babək Niftəliyev və Anar Şuşalı, Zəngilanın Mincivan qəsəbə və Bartaz kənd uşaq musiqi məktəblərinin müəllimləri musiqi nömrələri ilə çıxış ediblər.

Abşeron rayonunun Xırdalan şəhərində təşkil olunan bayram tədbirində tanınmış incəsənət ustalarının ifasında konsert proqramı təqdim edilib.

***

Ağstafada təşkil olunan ümumrayon tədbirində RMİ-nin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin əməkdaşları tərəfindən kitab və rəsm sərgiləri nümayiş etdirilib, musiqi nömrələri səsləndirilib.

Ağstafa RMİ-nin təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. İncəsənət ustalarının iştirakı ilə geniş konsert proqramı könülləri oxşayıb.

***

Kürdəmir RMİ və Kürdəmir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Zəfər Günü münasibətilə ümumrayon tədbiri keçirilib. I Qarabağ və 44 günlük Vətən müharibəsi iştirakçıları, qaziləri, şəhid ailələri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi bayram tədbirində rayonun incəsənət ustalarının, aşıqların ifasında musiqi nömrələri səsləndirilib.

***



Biləsuvar RMİ Biləsuvar rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən "Pəncərə" teatr studiyasının kollektivi "Azadlıq verilmir, azadlıq alınır" tamaşasını təqdim edib. Biləsuvarda təşkil olunan ümumrayon tədbirində Mədəniyyət Mərkəzi solistlərinin ifasında vətənpərvər ruhlu mahnılar səsləndirilib.

Salyan rayon Mədəniyyət Mərkəzi, Marışlı və Çuxanlı kənd folklor evləri, Aşağı Kürkənd klubu kollektivlərinin iştirakı ilə Azərbaycan və Türkiyə bayrağı ilə bəzədilən avtomobillərlə yürüş təşkil edilib. Həmçinin Mədəniyyət Mərkəzində bayram konserti təşkil olunub.

***

Ağdaş RMİ və Ağdaş RİH-nin birgə təşkilatçılığı ilə konsert proqramı keçirilib. RİH-nin başçısı Tofiq İbrahimov və RMİ-nin rəisi Səxavət Məmmədovun iştirak etdikləri tədbirdə Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası "Xəmsə" estrada kollektivinin və "Mübarək" rəqs qrupunun təqdimatında vətənpərvərlik ruhlu mahnılar, rəqslər ifa olunub, şeirlər səsləndirilib.

***

Ağcabədi RMİ Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Zəfər yolu" adlı inşa müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. İnci Musayeva I, Şahnaz Quliyeva II, Fərid Quliyev isə III yerlərə layiq görülüblər. Ağcabədi rayonunda Zəfər Günü münasibətilə ümumrayon tədbiri təşkil edilib. Tədbirdə Ağcabədi şəhər Uşaq musiqi məktəbi kollektivinin ifasında konsert proqramı təqdim olunub. Ağdam şəhərində "Vətənpərvərlik etüdləri" layihəsi çərçivəsində "Ağdamın mənzərələri" adlı etüd-sərgi təşkil edilib.

***

Şəmkirdə keçirilən bayram tədbirində əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib. Tədbirdə Şəmkir RİH-nin başçısı Rəşad Tağıyev, RMİ-nin rəisi Zöhrab Adıgözəlov çıxış ediblər. Daha sonra vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib, konsert proqramı təqdim olunub.

***

Sabirabad RMİ, rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı, Sabirabad RİH-nin təşəbbüsü ilə yürüş keçirilib. Tədbirdə M.Müşfiq adına orta məktəbin şagirdlərindən ibarət "Şahinlər" komandası, həmçinin Quruzma kənd orta məktəbinin şagirdləri vətənsevərlik ruhlu şeirlər səsləndiriblər. Tədbir "Mübarizlər" teatrının təqdim etdiyi kompozisiya ilə sona çatıb.

***

İsmayıllı rayonunda Zəfər Günü münasibətilə ümumrayon tədbiri keçirilib. Rayon rəhbərliyi, millət vəkili Novruzəli Aslanov, İsmayıllı RMİ-nin rəisi Elçin Nəcəfov, digər müəssisə və təşkilatların nümayəndələri, şəhid ailələri, qazilərin iştirak etdiyi tədbirdə Azərbaycan Ordusunun şanlı Qələbəsi haqqında söz açılıb. Daha sonra mərkəzi meydanda məktəblilərin, Heydər Əliyev Mərkəzi və Uşaq-Gənclər İnkişaf Mərkəzinin hazırladığı "Zəfər sərgisi"nə baxış olub. Sonda İsmayıllı rayon Mədəniyyət Mərkəzinin təqdim etdiyi ədəbi-bədii kompozisiya maraqla qarşılanıb.

***



Gəncə RMİ, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi və təşəbbüsü ilə Gəncə Dövlət Filarmoniyasında konsert təşkil olunub. Konsertdə filarmoniyanın "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının (bədii rəhbər – Sahil Quliyev) ifasında vətənpərvər ruhlu musiqilər səsləndirilib.

Gəncənin "İstiqlal" parkında təşkil olunan bayram tədbirində burada inşa edilən Memorial Abidə Kompleksinin açılışı keçirilib. Kompleksin müəllifi Əməkdar rəssam Şərif Şərifovdur. Çıxışlardan sonra Gəncə Dövlət Dram Teatrı tərəfindən "Azərbaycan, Zəfər Günün mübarək!" adlı ədəbi-bədii kompozisiya nümayiş olunub.

Goranboy rayon Dövlət Rəsm Qalereyası tərəfindən məktəblilərin əsərlərindən ibarət rəsm sərgisi nümayiş etdirilib.

***

Şəki RMİ Şəki şəhər Uşaq incəsənət məktəbində "Qayıdış" adlı tədbir keçirilib. Tədbirdə məktəbin Xalq çalğı alətləri orkestri, müəllim və şagirdlərdən ibarət kamera ansamblı, xor kollektivi bir-birindən rəngarəng musiqi nömrələri ilə çıxış ediblər. Sonda məktəbin Xoreoqrafiya şöbəsinin şagirdləri "Vətənə qayıdış" kompozisiyasını nümayiş etdiriblər.

***

Lənkəran RMİ-nin əhatə etdiyi Oqtay Kazımi adına Astara şəhər Uşaq musiqi məktəbinin məzunları olmuş qazilər Abdulla Cəfərli, Elnur Babayev və Eldar Quliyevlə görüş keçirilib. Görüşdə çıxış edən Lənkəran RMİ-nin Astara rayonu üzrə nümayəndəsi Şadoğlan Bayramov və musiqi məktəbinin müəllimi Aybəniz Dadaşova tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik ediblər.

***

Mədəniyyət.- 2021.- 12 noyabr.- S.4.